15 iyun–Milli Qurtuluş Günüdür

Qəbələdə bayram tədbiri

15 iyun 1993-cü il Azərbaycan tarixinə Milli Qurtuluş Günü kimi daxil olmuşdur. Həmin vaxtdan 23 il keçir və hər il Azərbaycan xalqı bu tarixi günü böyük təntənə ilə qeyd edir.

Rayon icra hakimiyyəti həmin günə həsr olunmuş möhtəşəm bayram tədbiri keçirmişdir. Tədbirə başlamazdan əvvəl rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayev, iştirakçılar, ümummilli liderimiz Heydər Əliyevin şəhərin mərkəzi parkında ucaldılmış abidəsi önünə tər gül dəstələri qoymuş və xalqımızın böyük oğlunun əziz xatirəsini yad etmişlər.



Tədbir Mədəniyyət Mərkəzində davam etdirilmişdir. Yığıncaqda idarə və müəssisə rəhbərləri, ictimai təşkilatların nümayəndələri iştirak edirdilər. Yığıncağı giriş sözü ilə rayon icra hakimiyyəti başçısının müavini Ətayə Osmanova açmış, salona toplaşanların şəxsində bütün Azərbaycan xalqını, o cümlədən qəbələliləri Milli Qurtuluş Günü ilə əlaqədar təbrik etmişdir. O, qeyd etmişdir ki, əsrlər boyu müstəqillik, azadlıq əldə etmək arzusunda olan Azərbaycan xalqı XX əsrdə bu arzusuna ikinci dəfə nail olmuşdur. Keçmiş SSRİnin dağılması ilə əlaqədar xalqımıza ikinci böyük şans nəsib olmuşdur. İlk öncə Azərbaycan xalqı bu müstəqilliyi qoruyub saxlamaq üçün çox əzablı yol keçmiş və əldə edilmiş müstəqilliyi itirmək təhlükəsi altında yaşamışdır. Belə bir vaxtda xalq Heydər Əliyevi təkidli tələblə Azərbaycana dəvət etdi. Ulu öndərin iyun ayının 9-da Bakıya qayıdışı, iyun ayının 15-də Milli Məclisin sədri seçilməsi, onun sonrakı siyasi fəallığı Azərbaycanda o vaxtlar müstəqilliyimizi itirmək təhlükəsi üçün baş verməkdə olan hadisələrin qarşısını aldı. Azərbaycanın müstəqilliyi birmənalı şəkildə qorundu, xalq düçar olduğu ağır bəlalardan qurtuldu. Digər tərəfdən 1990-cı illərdə davam edən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ konflikti, Azərbaycanın müstəqilliyini istəməyən daxili və xarici düşmənlərin təsiri altında ölkənin parçalanmaq təhlükəsi də son dərəcə dözülməz idi. Heydər Əliyevin ikinci dəfə Azərbaycanda hakimiyyətə qayıdışı ölkədə yeni mərhələnin başlanğıcını qoydu. Bütün bunlar sözün əsl mənasında Azərbaycan xalqının baş verməkdə olan faciələrdən, fəlakətlərdən, ölüm və tökülən qanlardan qurtulması idi. Heydər Əliyev qısa bir zaman kəsiyində xalqımızı istəməyən qüvvələrin qarşısını kəsdi və gözlənilən təhlükələrə son qoydu. İndi Azərbaycan xalqı 1997-ci ildən bəri hər il iyun ayının 15-ni Milli Qurtuluş Günü kimi qeyd edir. Ötən illər ərzində isə əldə edilən nailiyyətlər artıq göz qabağındadır.

Çıxışına davam edən natiq Heydər Əliyevin Azərbaycana qayıdışı və ölkənin müstəqilliyinin qorunub saxlanması, xalqın ağır iqtisadi vəziyyətdən qurtulması, hüquqlarının müdafiəsi, gənc müstəqil dövlətin iqtisadi gerilikdən çıxarılması, beynəlxalq nüfuzunun yüksəlməsi üçün geniş islahatlar həyata keçirməsi, bu gün ölkənin etibarlı əllərdə olduğu, Heydər Əliyev siyasi kursunun uğurla davam etdirilməsi və qazanılan nailiyyətlər barədə maraqlı faktlar söylədi. Əldə olunan nailiyyətlərin Qəbələnin timsalında aydın göründüyünü qeyd etdi. Ə. Osmanova sonda xalqımıza sülh, əmin-amanlıq, süfrələrə bol ruzi-bərəkət, can sağlığı arzuladı.

Mədəniyyət Mərkəzinin musiqi kollektivlərinin hazırladıqları geniş konsert proqramı iştirakçılarda xoş ovqat yaratdı.

Oqtay MƏMMƏDOV.
Fotolar İ. Vəlizadənindir.

Meksikalı rəssamın sərgisi açıldı

14 iyun 2016-cı il tarixdə Qəbələ Mədəniyyət Mərkəzində Meksika səfirliyinin təşəbbüsü ilə Meksikalı məşhur rəssam Marqarita Moralesin rəsm əsərlərindən ibarət sərgisi təşkil olunmuşdur.

Sərgidə Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev çıxış edərək qonaqları və iştirakçıları salamlamış, Qəbələ rayonunda aparılan abadlıq quruculuq işləri barədə məlumat vermişdir. Çıxışına davam edən natiq Qəbələnin bir sıra beynəlxalq tədbirlərə—musiqi festivallarına, incəsənət sərgilərinə ev sahibliyi etdiyini vurğulamışdır. Bildirilib ki, Qəbələni şöhrətləndirən və dünyaya tanıdan bu kimi möhtəşəm tədbirlər müstəqil ölkəmizin sosial-iqtisadi sahədə sürətli inkişafı, ümummilli liderimiz Heydər Əliyevin müəyyən etdiyi inkişaf xəttinin Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən böyük uğurla davam etdirilməsinin məntiqi nəticəsidir. Bildirmişdir ki, bu gün təşkil olunan sərgi tamaşaçılar tərəfindən maraqla qarşılanacaq və uzun müddət yaddaşlarda qalacaq.

Mərasimdə Meksikanın Azərbaycandakı səfiri Xuan Rodriqo Labardini Flores çıxış edərək qədim tarixə malik Qəbələdə olmasından məmnunluğunu bildirmişdir. Çıxışına davam edən səfir bildirib ki, Marqarita Morales yaradıcılığı olduqca müxtəlif yönlüdür. Rəssamın yaradıcılığının formalaşmasında ənənəvi Meksika mədəniyyəti ilə yanaşı, müasir incəsənətin müxtəlif üslublarının təsiri də duyulmaqdadır.

Meksikalı məşhur rəssam Marqarita Morales tədbirdə hamını salamladı, sərgidə iştiraklarına görə minnətdarlığını bildirdi.

Qeyd etdi ki, əsərlərinin bir neçəsini Azərbaycanda çəkmişdir. Bu əsərləri çox gözəl alınmışdır. Bunun Azərbaycanımızın gözəlliyi ilə əlaqədar olduğunu bildirdi. Ümid etdi ki, əsərlər hamının xoşuna gələcək.

Sonda sərgi iştirakçıları Marqarita Moralesin əlvan rəng çalarları və heyranedici enerji ilə zəngin abstrakt mövzuda ərsəyə gətirdiyi əl işləri ilə yaxından tanış olmuşlar.

«Qəbələ».
Foto İ. Vəlizadənindir.